# GƏNC VƏ YENİYETMƏLƏR ARASINDA NARKOMANİYA ƏLEYHİNƏ PROFİLAKTİK TƏDBİRLƏR

***Bu gün bəşəriyyəti narahat edən ən ağrılı problemlərdən biri və bəlkə də birincisi olan narkomaniya gənclər və yeniyetmələr arasında geniş yayılmışdır. Narkotik maddələrdən sui-istifadənin profilaktikası ilə məşğul olan Səhiyyə Nazirliyinin və QHT-nin rəsmi məlumatlarına əsasən, belə nəticə çıxarmaq olar ki, daha aktiv pereventiv siyasətin həyata keçirilməsinin vaxtı çatmışdır. Bu siyasət bütün aspektlərə, o cümlədən sosial və tibbi aspektlərə toxunmalıdır. Tibbi aspektlərə daha böyük önəm verməklə bərabər gənclərlə aparılan profilaktik işlərdə Gənclər və İdman Nazirliyinin xidmətləri böyükdür. Bu məqsədlə nazirliyin əməkdaşları tərəfindən bir neçə proqram hazırlanıb, həyata keçirilmişdir. Bu proqramlarda narkotik maddə qəbul edən yeniyetmə və gənclərdə infeksiyon, həmçinin somatik xəstəliklərin erkən diaqnostikasını təmin etmək və onların müalicəyə olan inamını artırmaq üçün hazırlanmışdır. Gənclər arasında AİDS, B və C virus hepatitlərinin artmasının əsasən narkotik maddələrin qəbulu ilə bağlı olduğunun izah edilməsi və həmin xəstəliklərin ilkin profilaktikasının aparılmasının çox vacib olması aydınlaşdırılmalıdır.***

**Ümumiyyətlə, narkotik maddələrin qəbulunu iki cür şərtləndirirlər:**

**I. Əhval-ruhiyyəni süni yolla yüksəltmək;**
**II. Xoşagəlməz halların qarşısını almaq.**

Narkotik maddələrin qəbulu insan orqanizminə əsasən iki istiqamətdə təsir edir və nəticədə psixi və fiziki asılılıq formalaşır, ağır yoluxucu və somatik xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

**Psixi asılılıq** - qəbul edilən narkotik maddələrin təsirindən xoş əhval-ruhiyyə və psixi komfortun yaranması ilə müşahidə olunan vəziyyətdir.

**Fiziki asılılıq** - narkotik maddələrin qəbul edilməsinin dayandırılması zamanı intensiv fiziki pozğunluqlarla müşahidə olunan vəziyyətdir.

**Hansı insanlar narkomaniyaya düçar olur?**

**İstənilən insan müəyyən şəraitlərin təsiri altında narkoman ola bilər.**

**Tədqiqatçılar bir neçə şəxsiyyət tipini, xarakter xüsusiyyətlərini ayırd edirlər ki, bu da narkotizasiyaya təkan verir:**

**1. Astruktur şəxsiyyət tipi** - müəyyən həyati maraqları olmur, cəmiyyətdə, ailədə və işdə heç nəyə maraq göstərmirlər. Belə insanlar normal istirahət etməyi bacarmırlar, öz fikirləri olmur, asan təsir altına düşürlər. Həyatdan bezmiş olurlar.

**2. Ekstranal şəxsiyyət tipi** - xarici nəzarətli insanlardır. Onlar rəsmi şəraitdə pirinsipiallıq göstərərək, hipersosial ola bilərlər. Lakin xarici nəzarət olmadıqda norma və qaydaları pozmağa meyilli olurlar. Onlarda daxili saxlama mexanizmi olmadığından hər dəfə narkotik əldə etdikdə istifadə edirlər.

**3. Asosial şəxsiyyət tipi** - xarakter xüsusiyyətləri olan gənclər - sosial normaların əksinə getməyə meyilli olurlar. Onlar siqaret çəkməklə, alkoqol qəbulu ilə yanaşı, xuliqanlıq etməklə narkotizasiyaya meyilli olurlar. Belə gənclərin əksəriyyəti sonra həbsxanaya düşür.

***"Gənc və yeniyetmə narkotik maddə qəbul edirmi?" sualına cavab vermək üçün aşağıdakı əlamətlərin olmasına diqqət yetirmək lazımdır:***



*- dərslərə davamiyyətin kəskin pisləşməsi;*
*- köhnə məşğuliyyətinə olan marağın itməsi (idman, musiqi və s.);*
*- diskoteka və ya digər əyləncə yerlərindən qəribə vəziyyətdə evə qayıtması;*
*- valideynlərindən tez-tez pul istəməsi;*
*- əhval-ruhiyyənin tez-tez səbəb olmadan kəskin dəyişməsi;*
*- adi vəziyyətlərə və hadisələrə aqressiv, tənqidi münasibət,qıcıqlılıq və nihilizm;*
*- tənhalığa can atması;*
*- yalançılığın artması;*
*- entuziazmın olmaması, biveclik və inisiativsizlik;*
*- cinsi marağın azalması;*
*- ümumi psixi dəyişikliklər, yaddaşın zəifləməsi, məntiqi düşünmə qabiliyyətinin azalması, öz hərəkətlərinin səbəbini izah edə bilməməsi;*
*- iştahanın olmaması, arıqlama;*
*- pintilik, yeni dostlara marağın olmaması;*
*- xarici görkəmcə xəstə insanlara oxşaması, sifətin avazıması, ödəmli olması, göz almalarının qızarması, dilin üzərində qəhvəyi rəngdə ərpin olması;*
*- yuxusuzluq, tez yorulma;*
*- saçlarından və paltarlarından "kənar" qəribə iyin gəlməsi;*
*- ailədə münasibətlərin pisləşməsi;*
*- emosional labillik (dayanıqsızlıq);*
*- depressiya (ruh düşkünlüyü), yadlaşma;*
*- fiziki simptomlar (əlamətlər) - skleranın hiperemiyası (göz ağının qızarması), bəbəyin böyüməsi, boğazda ağrılar və yanğı, göz altının şişməsi, burun suyunun axması və çəkinin kəskin azalması, venalarda çapıqlar.*

**Yuxarıda göstərilən əlamətlər olan şəxslər mütləq həkim-narkoloqa müraciət etməlidirlər. Gənclər və yeniyetmələr arasında narkomaniyanın profilaktikası məqsədi ilə aşağıdakı tövsiyələrimizi onların bilməsi vacibdir:**

- narkotik maddələrdən istifadə etmək oyun və əyləncə deyil, bu çox ağır xəstəlikdir;
- narkotik maddələrin bir dəfə qəbulu ilə narkotik asılılıq arasında ancaq bir addım var;
- narkotiklər səni doğma, sevimli adamlarından və dostlarından ayırır;
- narkotik qəbul edəndə öz həyatının mənasını itirirsən;
- narkotik maddələrdən iynə vurmaqla (inyeksiya) istifadə edərkən sən ağır infeksion viruslu xəstəliklərə (AİDS, B və C virus hepatitləri) yoluxa bilərsən;
- narkotikin qəbulu nəticəsində səndə psixi pozuntular və özünə qəsdetmə (suisid) halları yarana bilər;
- narkotiklərdən istifadə edərkən sənin vərəm və dəri - zöhrəvi xətəliklərinə düçar olmaq ehtimalın yüksəlir;
- narkotik alverçiləri (narkodilerlər) əsasən gənclərin toplaşdığı yerlərdə hərəkət edirlər və yeniyetmələrlə yaxınlıq etməklə onları bu bəlaya düçar edirlər;
- narkotikdən birinci dəfə istifadə etməklə ümid etmə ki, gələn dəfə sən narkotikin qəbulundan imtina edə bilərsən.

**DİQQƏT: Dövlət hər şeyi edəcək deyə, vətəndaşların kənarda dayanıb seyrçi mövqe tutması sadəlövhlükdür.**

**Bütün idarə və təşkilatlar, qeyri-hökumət təşkilatları, hər bir vətəndaş narkomaniya ilə mübarizədə fəal iştirak etməlidir.**

**"Əsgər"**

## HİKMƏTLİ KƏLAMLAR

Bu günü daha yaxşı görmək üçün keçmişi bilməliyik.

**Ömər Xəyyam**

Bilik öyrənməyi ar bilən hər kəs
Dünyada mərifət qazana bilməz.

**Nizami Gəncəvi**

Bacarsan hamının yükünü sən çək
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər
Sənin də yükünü bütün el çəkər.

**Nizami Gəncəvi**

Axmaqlarla oturub-durmaqdansa, kitabla tənha oturmaq yaxşıdır.

**Qasım bəy Zakir**

Hər sözü bir ulduz, bir şəffaf almaz,
Mənalar dünyası qaranlıq deyil,
Bu böyük kitablar yaranır az-az,
Çünki ömürlükdür, bir anlıq deyil.

**Səməd Vurğun**

Oxuduğuna əməl etməyən alim məşəl gəzdirən kora bənzər.

**Sədi Şirazi**

Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.

**Abdulla Şaiq**

Ya göründüyün kimi ol, ya da olduğun kimi görün.

**Cəlaləddin Rumi**

Hər güldə tikan olar, ancaq hər tikanda gül olmaz.

**Cəlaləddin Rumi**

Əsl gözəllik surətdə deyil, ağıl və kamaldadır.

**Firidun bəy Köçərli**

Ağıllılar öz istədiklərini, ağılsızlar başqalarının istədiklərini öyrənir.

**Sədi Şirazi**

Ağıllı insan düşündüyü hər şeyi söyləməz, ancaq söylədiyi hər şeyi düşünər.

**Aristotel**

# KƏSKİN RESPİRATOR İNFEKSİYALARIN EPİDEMİOLOGİYASI VƏ PROFİLAKTİKASI

***Kəskin respirator infeksiyalar (KRİ) - əsasən hava-damcı yolu ilə keçən, tənəffüs yollarının selikli qişasının iltihabı və intoksikasiya ilə səciyyələnən, klinikası oxşar olan bir neçə kəskin infeksiyanın ümumi adıdır. KRİ-lər iki yüzdən artıq müxtəlif mikroorqanizmlər tərəfindən törədilir: qrip virusları, digər viruslar, bakteriyalar, virus və bakteriyaların assosiasiyaları.***

Bu infeksiyalar həm əhali, həm də hərbi qulluqçular arasında geniş yayılması ilə səciyyələnir.

Xəstəlik törədiciləri danışıq, asqırma və öskürmə aktlarından sonra xəstə orqanizmi tərk edərək ağız suyu və selik damcıları ilə hava mühitinə keçir. Burada aerozolların əksəriyyətinin quruması səbəbindən onların tərkibindəki törədicilər tezliklə məhv olur.

Yaşama qabiliyyətini saxlayan mikroorqanizmlər nəfəsalma vaxtı sağlam orqanizmə damcı, damcı-nüvə şəkilli aerozollarla daxil olaraq, bilavasitə yoluxmanı reallaşdırır. Ətraf mühit amillərinin bakteriosid təsirinə davamlılığı ilə seçilən bəzi mikroorqanizmlər qurumuş damcılardan müxtəlif səthlərə çökərək, toz hissəcikləri vasitəsilə ikincili yoluxmaya səbəb ola bilər.

Şəxsi heyətin xəstələnməsinin çoxillik dinamikasının təhlili göstərir ki, bəzi kənaraçıxmalara baxmayaraq hər bir konkret zaman kəsiyində kəskin respirator xəstəliklərin səviyyəsi demək olar ki, stabil xarakter daşıyır. İl ərzində xəstələnmə göstəriciləri aylara nisbətdə dəyişir. Yay mövsümü üçün səciyyəvi olan minimal xəstələnmə səviyyəsi payız fəslinin əvvəlindən başlayan və qışda davam edən mövsümi artımla əvəz olunur. Xəstəlik səviyyəsinin yüksəlişi hərbi qulluqçuların əksər vaxtlarını soyuqdan qorunmaq üçün isti, qapalı yerlərdə keçirməsi səbəbindən törədicinin sirayət mexanizminin fəallaşması hesabına baş verir. Orqanizmin qeyri-spesifik mühafizə amillərinin zəifləməsi məhz soyuqların düşməsi ilə eyni dövrə təsadüf edir.

Kəskin respirator infeksiyaların artımı əsasən gənc əsgərlərin qəbulu zamanı baş verir. Bu vəziyyətin reallığı xəstəliyin həmin dövrdə əhali arasında yayılma səviyyəsi, çağırış və toplanış məntəqələrində, şəxsi heyətin daşınma yollarında əks-epidemik tədbirlərin aparılmasının tamlığı və effektivliyinin səviyyəsi ilə müəyyən edilir.

Bundan əlavə, yerdəyişmə faktoru da mühüm əhəmiyyət kəsb edir. Konkret inzibati ərazidə miqrasiya proseslərinin artması, orada yaranmış immunostrukturun destabilləşməsinə və epidemik kükrəyişlərin inkişafına səbəb olur.

**Hərbi hissələrdə kəskin respirator infeksiyaları əleyhinə kompleks tədbirlər 3 istiqamətdə həyata keçirilməlidir:**

1. Müntəzəm surətdə yerinə yetirilən profilaktik tədbirlər;
2. Epidemiya təhlükəsi olduqda aparılan tədbirlər;
3. Epidemiyaların məhdudlaşdırılması və ləğvi üzrə aparılan tədbirlər.

### Birinci qrupdan olan tədbirlərə daxildir:

*- KRİ təsadüflərinin erkən aşkarı, xəstələrin təcridi və klinik göstəriş əsasında hospitalizasiyası;*
*- məzuniyyət və ezamiyyətlərdən qayıdanların tibbi baxışdan keçirilməsi;*
*- şəxsi heyətin yerləşdirilməsi üzərində tibbi nəzarətin həyata keçirilməsi;*
*- soyuqdəymə və donvurmaların qarşısının alınmasına yönəlmiş tədbirlərin yerinə yetirilməsi;*
*- hərbi qulluqçuların sağlamlığını möhkəmləndirmək üçün tədbirlərin həyata keçirilməsi;*
*- izolyator açılması üçün binanın əvvəlcədən müəyyənləşdirilməsi;*
*- sanitariya-maarifləndirmə işinin aparılması.*

### İkinci qrupdan olan tədbirlərə aiddir:

*- gücləndirilmiş tibbi müşahidənin tətbiqi;*
*- KRİ-yə yoluxmuş hərbi qulluqçuların fəal aşkarı, təcridi və hospitalizasiyası;*
*- kütləvi tədbirlərin aparılmasının müvəqqəti məhdudlaşdırılması;*
*- kazarmalarda və xidməti binalarda (otaqlarda) dezinfeksiya tədbirlərinin gücləndirilməsi;*
*- hissənin tibb məntəqəsi və hospitalın kəskin respirator infeksiyalarla xəstələnmiş hərbi qulluqçuların kütləvi qəbulu şəraitində işləmək üçün hazırlığının yoxlanılması.*

### Üçüncü qrupdan olan tədbirlərə daxildir:

*- xəstəliklərin yayıldığı bölüklərin (bölmələrin) şəxsi heyətinin digər bölüklərlə təmasının məhdudlaşdırılması;*
*- epidemiya ləğv olunana qədər yığıncaqlar və digər kütləvi tədbirlərin keçirilməsinin qadağan edilməsi;*
*- KRİ-yə yoluxmuş və yoluxmamış bölüklərin qida qəbulunun ayrı növbələrdə təşkili;*
*- cari və yekun dezinfeksiyanın aparılması;*
*- xidməti və yataq otaqlarında təmizlik işlərinin aparılması, mətbəx qabları və avadanlıqlarının yuyulması, həmçinin, hərbi qulluqçuların iş yerlərində mikroiqlim şəraitinə sanitariya nəzarətinin gücləndirilməsi;*
*- tibb məntəqəsi və hospitalda əks-epidemik rejimin gücləndirilməsi;*
*- təcili profilaktika tədbirlərinin aparılması.*

Kəskin respirator infeksiyalar əleyhinə mübarizədə, əsas etibarilə rejim - məhdudlaşdırıcı tədbirlər prioritet yer tutur. Bununla yanaşı, bu infeksiyaların profilaktikasında təbii fitonsidlərin (sarımsaq, soğan) qəbulu müsbət rol oynayır.

**t/x polkovnik-leytenantı**
**A.Musayev, DQBİ-də Tibb xidməti rəisinin müavini**

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

ƏSGƏR

№ 19 (485)
30 sentyabr 2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə abidənin yerləşdiyi parkda və ümumiyyətlə, şəhərdə görülən işlər barədə ətraflı məlumat verdi.

*****

Prezident İlham Əliyev Sumqayıt şəhərinə əsas giriş yolunda - Sülh küçəsində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, əsaslı təmir və yenidənqurma işləri şəhər icra hakimiyyəti tərəfindən yüksək keyfiyyətlə yerinə yetirilib. Bu ilin fevralında başlanılan yenidənqurma işləri sentyabrın əvvəlində yekunlaşıb. Bakı-Quba avtomobil yolundan başlayaraq şəhərdəki "Göyərçin" abidəsinə qədər bu küçənin uzunluğu 5,2 kilometrdir.

Diqqətə çatdırıldı ki, yol boyunca yaşıllıqlar salınıb, ağac və gül kolları əkilib, avtomatik suvarma sistemi qurulub. Yeni işıqlandırma sistemi də müasirliyi ilə diqqəti çəkir.

Bildirildi ki, eni 14 metr olan küçənin hərəkət hissəsi yenidənqurmadan sonra 22 metrə çatdırılıb. Müasir texnologiya əsasında hazırlanan bu asfaltın özəlliyi yükgötürmə qabiliyyətinin yüksəkliyində, elastikliyinin etibarlılığında və uzun müddət davamlı olmasındadır. Sülh küçəsinin əsaslı təmiri və yenidən qurulması Bakıdan Sumqayıta və əks istiqamətə nəqliyyatın rahat və maneəsiz hərəkətinə hərtərəfli imkan yaradır.

*****

Prezident İlham Əliyev əsaslı təmir olunaraq yenidən qurulan Sumqayıt Dövlət Dram Teatrının binasında yaradılan şəraitlə də tanış olub.

Dövlət başçısına məlumat verildi ki, bina 1956-cı ildə istifadəyə verilib. Burada yenidənqurma işlərinə ötən ilin dekabrında başlanılıb. Əsaslı təmir və yenidənqurma tədbirləri zamanı binanın bütün mühəndis-texniki qurğuları əsaslı surətdə yenidən qurulub. Binanın 500 yerlik tamaşa və 100 yerlik akt salonu ən müasir avadanlıqla təchiz olunub. Burada tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika və işıqlandırma sistemləri və digər avadanlıqlar quraşdırılıb.

Qeyd olundu ki, binanın müasir üslubda yenidən qurulması sakinlərin teatra marağının artmasına, şəhərin mədəni həyatının daha da canlanmasına təkan verəcək. Teatrın qarşısındakı meydanda 15 min kvadratmetr sahəyə mərmər döşənib, iki yeni fəvvarə və monitor quraşdırılıb.

Yenidənqurma işləri Sumqayıt Dövlət Dram Teatrının 150 nəfərlik kollektivinə işlərini günün tələbləri səviyyəsində qurmaq üçün maksimum şərait yaradır.

*****

Prezident İlham Əliyev Sumqayıt Dənizkənarı Bulvarının və şəhər çimərliyinin açılışında iştirak edib.

Dövlət başçısı Dənizkənarı Bulvarın və şəhər çimərliyinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Xəzər dənizinin sahili boyunca 4 kilometr uzunluğu olan bulvar kompleksinin ümumi sahəsi 106 hektardır. Bu istirahət məkanının tikintisinə ötən ilin oktyabrında başlanılıb.

Bulvarda Bayraq Meydanı inşa olunub. Azərbaycan Respublikasının dövlət bayrağı meydanda 42 metr hündürlüyündəki bayraq dirəyi üzərində dalğalanır.

Bildirildi ki, burada 100 min ağac, 500 mindən çox müxtəlif gül kolu əkilib, 60 min kvadratmetr sahədə çəmənlik salınıb, işıqlandırma sistemi qurulub. Park-bulvar kompleksində 10 min oturacaq qoyulub. Beş yerdə böyük fəvvarə kompleksi tikilib, su təchizatı və kanalizasiya şəbəkəsi yaradılıb. Kompleks boyunca 12 min poqonmetr uzunluğunda piyada yolu salınıb, mühafizə kameraları, monitorlar quraşdırılıb.

Qeyd olundu ki, bulvarda kiçik ölçülü gəzinti avtobusları və avtomobil yolu ilə yanaşı, velosiped idmanı ilə məşğul olmaq istəyənlər üçün də 3 metr enində xüsusi hərəkət zolağı salınıb. Ərazidə 2 yay uşaq-əyləncə mərkəzi tikilib, uşaqlar üçün 10 attraksion quraşdırılıb.

Diqqətə çatdırıldı ki, Sahil hissədə estakada qurulub və şəhərin akvatoriyasında gəzinti gəmilərinin hərəkətinin təmin olunması üçün işlər aparılır. Burada 500-dən çox yeni iş yeri açılacaq. Bu parkın çimərliyə birbaşa çıxışının olması onu digər bulvarlardan fərqləndirir.

*****

Prezident İlham Əliyev Sumqayıtın Sahil küçəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olub.

Sahil küçəsinin yenidən qurulması son illərdə Sumqayıtda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərin ardıcıl xarakter aldığını göstərir. Yenidən qurulan Sahil küçəsi Sumqayıtın yol-nəqliyyat infrastrukturunun inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.





Prezident İlham Əliyevə küçənin yenidən qurulması istiqamətində görülən işlər barədə məlumat verildi. Bildirildi ki, burada yenidənqurma işləri müasir səviyyədə və qısa vaxtda aparılıb. Küçənin uzunluğu 7,5 kilometrdir. Mövcud yol 1980-ci illərin əvvəllərində salınıb. Burada təmir-tikinti işlərinə ötən ilin noyabrında başlanılıb. Yolun eni orta hesabla 8 metrdən 13 metrə qədər genişləndirilərək sahəsi 112 min kvadratmetrə çatdırılıb. Yolun 4 min metrinə "Azəryoltikinti" ASC, 3500 metrinə isə daxili imkanlar hesabına asfalt örtüyü döşənib.

Yolboyu hər iki tərəfdə əhalinin sərbəst hərəkəti üçün səkilər salınıb, bir çox yerlərdə istirahət guşələri yaradılıb, dekorativ ağac və gül kolları əkilib. Təhlükəsizlik məqsədilə istinad divarları, hasarlar yenidən tikilərək aqlay daşlarla üzlənib. Küçədə yerləşən obyektlər təmir olunub, yolboyu işıqlandırma sistemi yenidən qurulub. Bu yolda Sumqayıt şəhərində ilk dəfə olaraq velosiped sürmək üçün xüsusi hərəkət zolağı salınıb. Sahil küçəsində aparılan yenidənqurma işləri həm avtomobillərin rahat hərəkətini, həm də piyadaların təhlükəsiz gediş-gəlişini təmin edəcək.

*****

Prezident İlham Əliyev Sumqayıtda Şahmat Məktəbinin açılışında iştirak edib.

Dövlət başçısı əvvəlcə Şahmat Məktəbinin binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Prezidentinə məlumat verildi ki, tikintisinə ötən ilin dekabrında başlanılan ikimərtəbəli binanın sahəsi min kvadratmetrdir. Məktəb yeni və müasir avadanlıqla təmin olunub. Burada 25 qrupda, ümumilikdə, 550-600 şagird idmanın qədim növü olan şahmatın sirlərini öyrənir. Şagirdlərlə 25 müəllim məşğul olur.

Prezident İlham Əliyev Şahmat Məktəbində yaradılan şəraitlə tanış oldu.

*****

Prezident İlham Əliyev Sumqayıtda Uşaq İncəsənət Məktəbinin açılışında iştirak edib.

Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Uşaq İncəsənət Məktəbinin binasının tikintisinə keçən ilin dekabrında başlanılıb. İnşaat işləri yüksək keyfiyyətlə görülüb. Üçmərtəbəli binada 80 otaq var. Məktəb yeni avadanlıqla təmin olunub.

Qeyd edildi ki, Uşaq İncəsənət Məktəbində 226 müəllim tədrislə məşğul olacaq. Məktəbdə, ümumilikdə, 800-dək şagird təhsil alacaq.

*****

Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.

Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Binanın foyesində Ümummilli Lider Heydər Əliyevin büstü ucaldılıb. Foyedə, həmçinin Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə gənclərə göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolardan ibarət guşələr yaradılıb.

Məlumat verildi ki, mərkəzin binasının tikintisinə ötən ilin noyabrında başlanılıb. Tikinti-quraşdırma işləri daxili imkanlar hesabına aparılıb. Üç mərtəbədən və mansardadan ibarət olan binanın ümumi sahəsi 4100 kvadratmetrdir. Burada iki konfrans zalı, nikah otağı, gənclər üçün müzakirə zalları, elektron kitabxana yaradılıb. Mərkəzdə linqafon, internet və rəssamlıq otaqları, fotostudiya və rəqs zalı fəaliyyət göstərir. Burada 25-30 nəfərin işlə təmin olunması nəzərdə tutulub.

Mərkəzlə tanışlıqdan sonra dövlətimizin başçısı Sumqayıt şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

**AZƏRTAC**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

**Respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov sentyabrın 21-də ölkəmizdə səfərdə olan Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları səmimi salamlayan nazir dövlətlərimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə Belarus Respublikasının Prezidenti cənab Aleksandr Lukaşenko arasında dostluq münasibətlərinin ikitərəfli əməkdaşlığı qısa müddətdə keyfiyyətcə daha yüksək səviyyəyə qaldırmağa, ölkələrimiz arasında siyasi dialoqu uğurla davam etdirməyə imkan verdiyini məmnunluqla vurğulayıb.

Daha sonra nazir Daxili İşlər Nazirliyinin funksional vəzifələri və fəaliyyət istiqamətləri, mövcud kriminogen durum, müstəqilliyin ilk illərində ölkəmizdə mövcud olan ictimai-siyasi vəziyyət barədə qısa məlumat verib. Qeyd olunub ki, yalnız Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə ali hakimiyyətə qayıdışından sonra onun rəhbərliyi altında görülən qətiyyətli tədbirlərlə bütün sahələrdə köklü islahatlar həyata keçirilib, sabitlik, əmin-amanlıq bərpa edilib, əməliyyat şəraiti tam nəzarətə götürülüb.

Daxili İşlər Naziri problemlərə toxunarkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan terrorçuluq və narkotiklərin qanunsuz dövriyyəsinin diqqət mərkəzində dayandığını, bu növ cinayətlərə qarşı yalnız birgə səylərlə mübarizə aparılmasının zəruriliyini bildirib.

Belarusla hüquq-mühafizə fəaliyyəti sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsinə xüsusi diqqət yetirildiyini nəzərə çatdıran cənab Ramil Usubov dost ölkənin Daxili İşlər Nazirliyi ilə sıx işbirliyinin mövcudluğunu, bu səfərin ikitərəfli əlaqələrin daha da inkişafına yeni töhfə verəcəyinə əminliyini xüsusi qeyd edib. Eyni zamanda, hər iki ölkənin Daxili İşlər Nazirlikləri Daxili Qoşunlarının əməkdaşlığının son illər uğurla inkişaf etdiyi və bu sahədə bir sıra müsbət nəticələrin əldə olunduğu da nəzərə çatdırılıb.



Səmimi qəbula, ətraflı məlumata görə təşəkkürünü bildirən cənab Stanislav Zas müstəqillik illərində Azərbaycanda geniş abadlıq, quruculuq işlərinin aparıldığını, böyük inkişaf nəticəsində Bakının simasının tamamilə dəyişdiyini, qazanılan uğurların onlarda məmnunluq hissi doğurduğunu bildirib.

Mehribanlıq və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

Görüşdə Belarus Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Gennadi Axramoviç iştirak edib.

* * * * *

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov sentyabrın 18-də Lənkəran Şəhər Rayon Polis Şöbəsində polis orqanlarının fəaliyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.***

Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının qəbul üçün müraciət edən sakinləri ilə görüşən nazir onları narahat edən problemləri şəxsən dinləyib, müraciətlərin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün nazirliyin tədbirdə iştirak edən aidiyyəti Baş İdarə və xidmət, həmçinin ərazi polis orqanlarının rəislərinə konkret tapşırıqlar verib. Daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı olan məsələlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb. Digərlərinin aidiyyəti qurumlara göndəriləcəyi nəzərə çatdırılıb.

Qəbulda iştirak edənlər yerlərdə vətəndaşlarla dövlət məmurlarının görüşməsi, onların müraciətlərinə, ərizə və şikayətlərinə operativ, həssaslıqla yanaşılması barədə dövlət başçısının məlum tapşırığının yüksək səviyyədə icrasına, problemlərinə hər zaman xüsusi diqqət və qayğı göstərilməsinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

## “ADEX-2016” AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİNDƏ DAXİLİ QOŞUNLAR KOMANDANLIĞI VƏ ŞƏXSİ HEYƏTİ İŞTİRAK EDİB

Sentyabrın 27-dən 30-dək Bakı Ekspo Mərkəzində keçirilən ikinci “ADEX-2016” Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisində 34 ölkədən 216 şirkət, 19 ölkədən 25 rəsmi nümayəndə heyəti iştirak edib. Ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edib.

Beynəlxalq nümayəndə heyətləri və şirkətlər tərəfindən Bakıda keçirilən “ADEX” sərgisinə göstərilən maraq ölkəmizin iqtisadi gücünü nümayiş etdirməklə yanaşı, Azərbaycanın mühüm strateji tərəfdaş kimi yüksək rolunu və regionun lider dövləti olduğunu bir daha təsdiqləyir.

Açılış günündən etibarən sərgidə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanlığı və şəxsi heyəti iştirak edib.

Sərgidə müdafiə sənayesi sahəsində dünyadakı ən son nailiyyətlər, ən yeni yerli məhsullar nümayiş olunub. Burada 10 ölkənin, o cümlədən Azərbaycanın milli qrupları öz ekspozisiyalarını göstərib. Şirkətlərin sayına görə ən böyük pavilyonlar Türkiyəyə (42 şirkət), İsrailə (14 şirkət) və Rusiyaya (14 şirkət) məxsus idi. Bu sərgilərin ən mühüm cəhəti ona ölkə rəhbərliyi tərəfindən göstərilən dövlət dəstəyidir.

Sərgi çərçivəsində Azərbaycanın milli pavilyonu ölkənin milli müdafiə kompleksini təqdim edib. Burada Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələri müdafiə və xüsusi təyinatlı məhsulları, eləcə də silah-sursat nümunələrini nümayiş etdirib.

Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi “ADEX-2016” sərgisinə 260 addan çox müdafiə təyinatlı məmulat çıxarıb.

Sərgi çərçivəsində Azərbaycanın müdafiə sənayesinin bir sıra yeni məhsullarının (müdafiə və xüsusi təyinatlı məhsullar, hərbi nəqliyyat vasitələri və texnika, silah-sursatlar və s.) təqdimatı olub.

Dünyanın müxtəlif ölkələrini təmsil edən şirkətlərin bron etdiyi açıq sərgi platforması xüsusi diqqətə layiq idi. Bu platformada ən son qırıcı təyyarələr, pilotsuz uçuş aparatları, tanklar, hava hücumundan müdafiə sistemləri və hərbi maşınlar nümayiş olunub. Bundan başqa, sərgidə ilk dəfə olaraq zirehli texnikalara xidmət və texniki baxış üzrə servis mərkəzi layihəsi də nümayiş edilib.

Qeyd edək ki, "ADEX-2016"-ya, ümumilikdə, dünyanın 50-dən çox aparıcı media qurumu qatılıb.

**Mətbuat xidməti**

## DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİ BÜTÜN TAPŞIRIQLARI PEŞƏKARLIQLA İCRA EDİB

***Bu gün Azərbaycan dünyada idman ənənələri ilə tanınır. Çünki idmanın inkişafı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. 2016-cı ildə artıq bir neçə mötəbər turnirin təşkilatçısı olan ölkəmiz daha bir beynəlxalq idman yarışına evsahibliyi etdi.***









Sentyabr ayının 16-dan 23-dək Qəbələ şəhərində Atıcılıq üzrə gənclər arasında dünya kubokunun mərhələ yarışı keçirildi. Yarışın yüksək səviyyədə təşkili bir daha ölkəmizin güclü iqtisadiyyata malik olduğunu bütün dünyaya nümayiş etdirdi.

Beynəlxalq turnir keçirildiyi zaman ən vacib məqamlardan olan ictimai təhlükəsizliyin təmin edilməsinə və ictimai qaydanın qorunmasına polis orqanlarının əməkdaşları ilə birgə Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin hərbi qulluqçuları da cəlb olunublar.

Bu məqsədlə hərbi hissədə qüvvə və vasitələrin hazırlığının yoxlanılması üçün sıra baxışı keçirilib. Hərbi hissə komandanlığı tərəfindən xidmətə cəlb olunan şəxsi heyətin hazırlığı, geyim təminatı, xüsusi avadanlıq və vasitələrlə təchizatı, eləcə də avtomobil və xüsusi texnikanın vəziyyəti yoxlanılıb.

Yarışlar zamanı şəxsi heyət kənar şəxslərin idman klubuna daxil olmasının qarşısının alınması məqsədilə perimetr boyu xidməti təşkil və idman silahları saxlanılan anbarların mühafizəsini təmin edib.

Atıcılıq klubunda müntəzəm olaraq mühəndis-istehkam qrupu tərəfindən şübhəli əşya, partlayıcı qurğu və maddələrə qarşı müayinə tədbirləri həyata keçirilib. Bu məqsədilə, xidməti itlərdən istifadə olunub.

Həmçinin, beynəlxalq turnirin keçirildiyi obyektlərdə xidmət aparan hərbi qulluqçuların maddi-texniki təchizatı da diqqət mərkəzində saxlanılıb. Bununla bağlı bütün növ maddi-texniki təminat tədbirləri görülüb, təyin olunmuş yerlərdə şəxsi heyətin istirahəti və qidalanması yüksək səviyyədə təşkil edilib.

Qeyd edək ki, xidmətə cəlb edilmiş hərbi qulluqçularımız tərəfindən yarış müddətində yüksək peşəkarlıq nümayiş etdirilib, qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

**baş leytenant T.Əlizadə**

## TƏLİM SINAQLARINDAN MÜVƏFFƏQİYYƏTLƏ ÇIXAN XÜSUSİ TƏYİNATLILARIMIZ “ZOĞALI BERET”LƏ MÜKAFATLANDIRILIBLAR

***Mürəkkəb, xüsusi əməliyyat şəraitlərində xidmət apara bilən, yüksək hazırlıqlı xüsusi təyinatlılar demək olar ki, bütün qoşun növlərinin ən etibarlı, eyni zamanda, seçmə bölməsi sayılır. Xüsusi təyinatlı bölmələrdə xidmət etmək üçün hərbi qulluqçular çox çətin təlim sınaqlarına cəlb olunur və yalnız müvəffəqiyyət əldə edənlər xüsusi təyinatlıların sıralarına daxil edilirlər.***

Daxili Qoşunların xüsusi təyinatlı dəstələri də inkişaf etmiş dövlətlərin eyni təyinatlı dəstələrindən geri qalmır.

Xüsusi təyinatlılarımız qoşunların xidməti-döyüş fəaliyyətinin həyata keçirilməsində mühüm əhəmiyyətə malikdir. Dəstənin əsas fəaliyyət sahəsi hüquqazidd əməllərin qarşısının alınması, o cümlədən silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi və işğal olunmuş torpaqların azadlığı uğrunda gedən döyüşlərdə iştirak etməkdir.

Daxili Qoşunların “Zoğalı beret” daşımaq şərəfinə nail olmaq istəyən xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları fərdi fiziki və peşə hazırlığının, eləcə də mənəvi-psixoloji keyfiyyətlərinin yoxlanılması məqsədilə ildə bir dəfə təlim sınaqlarına cəlb olunurlar.

Növbəti təlim sınağı Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrilə sentyabrın 9-dan 10-dək qoşunların 99713 saylı hərbi hissəsinin Təlim mərkəzinin ərazisində keçirilib. Sınaqların keçirilməsinə və şəxsi heyətin qiymətləndirilməsinə Daxili Qoşunların Baş İdarəsində Qərargahın Əməliyyat və döyüş hazırlığı İdarəsinin rəisi-qərargah rəisinin müavini polkovnik İnqilab Muradov rəhbərlik edib.

Təlim sınaqları altı mərhələdə keçirilib. İlk olaraq yolüstü taktiki tapşırıqlar yerinə yetirməklə, 10-12 km. məsafəyə tam təchizatlı marş qaçışını uğurla başa çatdıran xüsusi təyinatlılar ikinci mərhələdə ekstrimal şəraitdə xüsusi maneələr zolağını müvəffəqiyyətlə dəf ediblər. Sonra avtomat, pulemyot və tapançadan xüsusi təlim atış çalışmaları yerinə yetirilib. Xüsusi-taktiki və həmlə-desant hazırlığı mərhələsində tikilidə olan şərti silahlı cinayətkarlar alpinizm vəsaitlərindən istifadə etməklə pəncərə və eyvanlardan içəri daxil olan xüsusi təyinatlılar tərəfindən məhv edilib.

Hər dörd mərhələni uğurla yerinə yetirən hərbi qulluqçular beş və altıncı sınağa keçidi təmin ediblər. Onlar yüksək fiziki hazırlıq nümayiş etdirərək, əlbəyaxa döyüş təlimini də bacarıqla yerinə yetiriblər.

Beləliklə, iki gün davam edən “Zoğalı beret”i qazanmaq üçün peşə hazırlığı sınaqlarını uğurla başa vuran xüsusi təyinatlılarımız bu şərəfə nail olublar.

Təlimin sonuncu günü 99713 saylı hərbi hissədə sınaqlarda uğur əldə etmiş xüsusi təyinatlılarımıza “Zoğalı beret”lər təqdim edilib. Mərasimdə iştirak edən general-mayor Şirin Xəlilov “Zoğalı beret”ə layiq görülmüş hərbi qulluqçuları təbrik edərək bildirib ki, xüsusi təyinatlılarımız bu şərəfli adı hər zaman uca tutmalı, döyüş qabiliyyətinin artırılması istiqamətində daima öz üzərilərində çalışmalıdırlar.

**baş leytenant T.Əlizadə**

## HƏRBİ HİSSƏNİN TİBB PERSONALI VƏZİFƏ BORCLARINA MƏSULİYYƏTLƏ YANAŞIR

***Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılması Daxili Qoşunlar Komandanlığının və hərbi hissə rəhbərliyinin ciddi nəzarətdə saxladığı sahələrdən biridir. Bu məqsədlə yerlərdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir.***







67987 saylı hərbi hissənin tibb personalı da vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, müəyyən edilmiş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Tibb xidmətinin rəisi vəzifəsini icra edən tibb xidməti kapitanı Ariz Abdullayev bildirdi ki, gündəlik olaraq xidmət öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş müvafiq plana əsasən təşkil edir. Onun sözlərinə görə, öncə xidmət daxilində müşavirə keçirilir ki, bu zaman gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir zabitə aidiyyəti üzrə tapşırıqlar verilir.

Həkim-terapevt tibb xidməti kapitanı Asəf Yolçuyev ambulator xəstələrin qəbulunu, onlara yardım göstərilməsini, təyinatların icrasına nəzarəti, həmçinin xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılmasını həyata keçirir.

Stasionar xəstələrə nəzarət etmək, təyinatlar vermək, onların vaxtlı-vaxtında yerinə yetirilməsini nəzarətdə saxlamaq, ehtiyacı olan xəstələrin daha dərin müayinəsi məqsədilə seçilərək Daxili Qoşunların Hərbi Qospitalına göndərmək isə həkim-terapevt tibb xidməti leytenantı Sevinc Nəbiyevanın gördüyü işlərdir.

Gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunmuş şəxsi heyətin tibbi müayinəsi aparılır. Sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir, ehtiyac yarandıqda tibb məntəqəsinə ambulator müalicəyə götürülür.

Bundan başqa, hərbi hissədən sanitar-gigiyenik vəziyyət də nəzarətdə saxlanılır. Bu məqsədlə feldşer gizir Raisə Allahverdiyeva və xüsusi təyinatlı dəstədə sanitar-təlimatçı gizir Atif Qaraşov həftə ərzində əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında mütəmadi olaraq dezinfeksiya və dezinseksiya işləri aparır.

Bir sözlə, hərbi hissənin tibb xidməti tərəfindən həyata keçirilən profilaktik tədbirlər şəxsi heyətin səhhətinin etibarlı əllərdə olduğunu deməyə əsas verir.

**baş leytenant T.Əlizadə**

## DAXİLİ QOŞUNLARIN BİRİNCİLİYİ UĞRUNDA NÖVBƏTİ YARIŞIN NƏTİCƏLƏRİ MƏLUM OLUB

***«2016-cı ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı»na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, sentyabrın 24-25-də Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində Daxili Qoşunların birinciliyi uğrunda cü-do üzrə yarış keçirilib. Yarışda Ali Hərbi Məktəbdən və qoşunların hərbi hissələrindən 13 komanda, 88 nəfər hərbi qulluqçu iştirak edib.***

Şəxsi birincilik uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

**60 kq çəki dərəcəsində:**

**I yer** - çavuş Kamal Məmmədli (16075 saylı hərbi hissə);
**II yer** - əsgər Nicat Hətəmli (16077 saylı hərbi hissə);
**III yer** - kursant Kənan Atakişiyev (Ali Hərbi Məktəb).

**66 kq çəki dərəcəsində:**

**I yer** - əsgər Fərid Səməndərli (Ali Hərbi Məktəb);
**II yer** - əsgər Elmir Qocayev (25031 saylı hərbi hissə);
**III yer** - leytenant Nadir Şərifov (16075 saylı hərbi hissə);
**III yer** - əsgər Şenol Xasməmmədov (16075 saylı hərbi hissə).

**73 kq çəki dərəcəsində:**

**I yer** - əsgər Hüseyin Heydərli (16073 saylı hərbi hissə);
**II yer** - əsgər İlham Xəlilov (17072 saylı hərbi hissə);
**III yer** - əsgər Mirmehdi Mahmudlu (16075 saylı hərbi hissə);
**III yer** - baş leytenant Nurlan Məmmədov (16076 saylı hərbi hissə).

**81 kq çəki dərəcəsində:**

**I yer** - çavuş Araz Hacıverdiyev (99713 saylı hərbi hissə);
**II yer** - çavuş Əli Bayramov (99713 saylı hərbi hissə);
**III yer** - əsgər Hümmət Həbibov (17072 saylı hərbi hissə);
**III yer** - çavuş Bəxtiyar Ələsgərli (17072 saylı hərbi hissə).

**90 kq çəki dərəcəsində:**

**I yer** - baş çavuş Vüqar İsmayılov (67987 saylı hərbi hissə);
**II yer** - əsgər Əlmurad Muradov (16073 saylı hərbi hissə);
**III yer** - əsgər Amir Muradxanov (99713 saylı hərbi hissə).

**100 kq çəki dərəcəsində:**

**I yer** - baş leytenant Seymur Rzayev (99713 saylı hərbi hissə);
**II yer** - əsgər Rüstəm Nəsirli (25033 saylı hərbi hissə);
**III yer** - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə);

**+100 kq çəki dərəcəsində:**

**I yer** - əsgər Araz Mehrəliyev (67987 saylı hərbi hissə);
**II yer** - əsgər Vüsal Quliyev (12318 saylı hərbi hissə);
**III yer** - baş çavuş Ramal Məmmədov (17072 saylı hərbi hissə);

Komanda birinciliyinə gəldikdə isə cədvələ 99713 saylı hərbi hissə başçılıq edir. 67987 saylı hərbi hissə 2-ci yerə, 16073 saylı hərbi hissə isə 3-cü yerə çıxıb.

**Mətbuat xidməti**



*Şəhidlərimiz*

## FƏRRUX DAĞININ YAMACLARINDA...



NURUŞOV CƏNNƏT DƏMİR OĞLU

***Dağın da dağ boyda dərdi var deyiblər. 20 ildən çox düşmən əsirliyində qalan Fərrux dağı kimi...***

Hər il baharın gəlişi ilə yaşıl yamacları lalələrdən qırmızı rəngə boyanardı Fərrux dağının. 1992-ci ilin baharında zirvəsini qara buludlar dolaşmağa başlayanda isə yamaclarını duman-çən yox, dərd-qəm bürümüşdü. Dağ döşü qırmızı rəngə boyansa da lalələr gözə dəymirdi. Çünki Fərrux dağının yamaclarını şəhidlərimizin axan qanları boyamışdı...

***Daxili Qoşunların yüzlərlə hərbi qulluqçusu məhz bu strateji yüksəkliyin azad edilməsi uğrunda gedən döyüşlər zamanı şəhid olmuşdur. Onlardan biri də sıravi Cənnət Nuruşovdur.***

Sıravi Cənnət Dəmir oğlu Nuruşov 1973-cü il iyun ayının 4-də respublikamızda qəhrəmanlar yurdu kimi şöhrət qazanmış Qaçaq Nəbi elində - Qubadlı rayonunun Başarat kəndində dünyaya göz açıb. Dəmir kişinin və Gilanar ananın dörd övladından (*üç qardaş, bir bacı idilər. Qardaşı Bəhruz Nuruşov mülki Qarabağ əlilidir – A.Ə.*) ən böyüyü idi.

1980-cı ildə digər həmyaşıdları kimi Cənnət də əlinə çanta götürüb, doğma kəndlərində yerləşən orta məktəbin 1-ci sinfinə gedib. Orta məktəbi başa vurandan sonra o, Sumqayıt şəhər Politexnik Texnikumuna qəbul olub. Oxumağa, yazmağa böyük maraq göstərərdi. Təhsilini gələcəkdə də davam etdirmək hələ uşaq yaşlarından onun ən böyük arzusu idi. Məhz buna görə də dərslərinə xüsusi fikir verirdi.

Onunla vaxtı ilə bir məktəbdə təhsil almış həmkəndlisi, hazırda isə Qubadlı Rayon İcra Hakimiyyətinin Başarat kənd İnzibati ərazi dairəsi üzrə nümayəndəsi işləyən Nəriman müəllim Cənnət haqqında xatirələrini bizimlə bölüşərkən bunları dedi:

“Mən ondan iki sinif aşağı oxumağıma və aradan xeyli müddət keçməsinə baxmayaraq, Cənnət elə indi də xatirimdədir. Məktəbimizdə hamı onu tərbiyəli və çalışqan şagird kimi tanıyardı. Təbiətən sakit və ciddi bir insan idi. Buna görə də o, həm müəllimlərin, həm də şagirdlərin sevimlisi idi. Bu gün isə Başarat camaatı Cənnəti Vətənimizin qəhrəman oğlu kimi xatırlayır və onunla qürur duyur”.

1992-ci ildə C.Nuruşov Qubadlı Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Texnikumda təhsilini müvəffəqiyyətlə başa vuran Cənnət, bu çağırışa böyük həvəslə səs verərək Ana Vətənimizin müdafiəsinə yollanır...

C.Nuruşov Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirməyə Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin sıravi döyüşçüsü kimi başlayıb. Xarakterindəki müsbət keyfiyyətlərinə görə Cənnət tez bir zamanda hərbi kollektivin hörmət və etibarını qazanıb. O, Ağdamın Manikli kəndinin müdafiəsində və Fərrux dağının azad edilməsində əlindən gələni əsirgəməyib. Elə Cənnətin son döyüşü də Fərrux dağının azad edilməsi uğrunda oldu...

***Haşiyə:*** Fərrux Ağdam rayonu ilə Əsgəran rayonu (Xankəndi istiqamətində) arasında yerləşən böyük bir dağdır. Dağın ətəyində isə eyniadlı balaca bir kənd yerləşir. Bu kənd və yüksəklik tarixən xüsusi strateji əhəmiyyətə malik bir yer olub. Hələ o zaman, 1905 və 1918-ci illərdə Qarabağda baş verən erməni-müsəlman davasında Fərruxu almaq daşnaklara nəsib olmayıb. Ermənilər Fərruxun alınmaz qala olduğunu anlayaraq buranı Qarabağın “qızıl açarı” adlandırırdılar.



**7 mart 1993-cü il.** Fərrux dağının azad edilməsi uğrunda qanlı döyüşlər gedirdi. Bu yüksəkliyin azad edilməsi sıravi C.Nuruşovun xidmət etdiyi hissənin qarşısına qoyulmuş ən mühüm tapşırıqlardan biri idi. Cənnətin son döyüşü də elə məhz bu tarixdə oldu...

Silahdaşları kimi Cənnət də Fərruxda yuva salmış daşnakları məhv edəcəyinə və bu yolda son damla qanınadək vuruşacağına and içmişdi.

Əsl sərkərdə kimi vuruşaraq, neçə-neçə erməni cəlladını məhv edən cəsur döyüşçünün Vətən sevgisi ilə döyünən ürəyi düşmən snayperinə tuş gəldi. Cənnət andına sadiq qalaraq Fərrux dağının yamaclarında əbədiyyətə qovuşsa da daha yüksək zirvəni - Şəhidlik zirvəsini fəth edə bildi...

Vətənin şəhid oğlu sıravi Cənnət Nuruşov 1993-cü il martın 9-da doğma Başarat kəndində dəfn edilib.

Qeyd edim ki, Cənnətin həyat və döyüş yolu barədə rayonun görkəmli ziyalısı Tariyel Cahangirovun Qubadlı şəhidlərindən bəhs edən və 1998-ci ildə Bakıda “Günəş” nəşriyyatında işıq üzü görən **“Vətən oğul istəyəndə”** adlı kitabında qısa məlumat verilib.

Ən ağrılısı isə odur ki, Cənnətin qoynunda uyuduğu doğma Başarat kəndinə hələ də düşmən qüvvələri nəzarət edir. Nuruşovlar ailəsi isə hazırda müvəqqəti olaraq Sumqayıt şəhərində məskunlaşıb. Onların ən böyük arzusu tezliklə torpaqlarımızın azad olunması və Cənnətin ruhu dolaşan doğma kəndlərinə qovuşa bilmələridir...

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan A.Əhmədov**

## AZƏRBAYCAN TARİXİNDƏ SİLİNMƏZ İZLƏR QOYAN GÜLÜSTAN MÜQAVİLƏSİNİN İMZALANMASINDAN 203 İL ÖTÜR...

***Cənubi Qafqazın 1809-1817-ci illəri əhatə edən xəritələrində Gülüstan müqaviləsindən əvvəl formalaşan və bu müqavilə ilə təsdiqlənən Rusiya - İran sərhədləri və o sərhədlər arasında Azərbaycan torpaqları tam dəqiqliyi ilə göstərilir. O torpaqların itkisi və xalqımızın parçalanması ilə nəticələnən Gülüstan müqaviləsinin imzalanması 1813-cü ilin 12 oktyabrında Qarabağda Gülüstan kəndində baş tutdu. Bu sənəd (ingiliscə: Treaty of Gulistan) Rusiya imperiyası ilə İran dövləti arasında imzalanan və tarixi Azərbaycan ərazilərini ikiyə bölən ilk müqavilə idi.***




1812-ci ildə Napoleonun Rusiyaya hücumundan istifadə edərək İran vəliəhdi Abbas Mirzə rusların işğal etdiyi Azərbaycan xanlıqlarını geri qaytarmağa cəhd etsə də general P.Kotlyarevski bunun qarşısını ala bildi. Abbas Mirzə Qarabağa daxil olub Şahbulağı tutsa da əldə saxlaya bilmədi. Gəncəyə, Şəkiyə hücumların da nəticəsi olmadı. Ruslar irəliləyərək 1813-cü il yanvarın 1-də Lənkəran qalasını ələ keçirdilər. Rusların qələbəsindən və İranın içərilərinə doğru irəliləməsindən narahat olan ingilislər şahı sülh bağlamağa təhrik etdilər. Beləliklə, Birinci Rusiya-İran müharibəsi ikincinin tam məğlubiyyətilə qurtardı və 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində tərəflər arasında sülh müqaviləsi imzalandı. Bu müqaviləni İran şahının vəkili Mirzə Əbdülhəsən xan Şirazi və Qafqazın yeni baş komandanı Ratişşev imzaladılar. İran Şərqi Gürcüstana, Qazax və Şəmşəddil sultanlıqlarına, həmçinin Dağıstana olan iddialarından əl çəkdiyini bildirdi. Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya aid edildi. Bu maddə Rusiya-İran ticarəti üçün əlverişli şərait yaradır, rus tacirlərini daxili gömrük vergisindən azad edirdi. Bu sülh müqaviləsinin şərtlərinə əsasən, eyni zamanda Şimali Azərbaycan xanlıqlarından İrəvan və Naxçıvanı çıxmaqla, yerdə qalan bütün xanlıqlar - Talış, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ və Şəki Rusiyaya verilirdi.

203 ildir xalqımızı iki yerə ayıran Gülüstan müqaviləsi torpaqlarımızın tamamilə parçalanmasına gətirib çıxardı. Bu mənada 12 oktyabr günü dövlətçilik tariximizdə, xalqımızın yaddaşında ən faciəli günlərdən biridir.

Müqavilədə deyilirdi: "...Rusiya İmperiyası və İran dövləti arasında sərhəd aşağıdakı xətt olsun: Adınabazar adlanan yerdən başlayaraq düz xətlə Muğan düzündən Araz çayında Yeddibulaq keçidinədək, oradan üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə, oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının sərhədləri ilə davam etdirərək Alagöz dağları silsiləsilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol (Gəncə) dairəsinin bir hissəsinin sərhədləri birləşən Dərələyəz sərhədinədək, buradan İrəvan xanlığını Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmşəddil torpaqlarını ayıran sərhədlə Eşşəkmeydan sərhədinə, oradan da dağlar silsiləsilə, çayın sağ tərəfilə, onun arxa yönündə Həmzəçəmən yolu ilə Pəmbək dağları silsiləsi ilə Şurakel sərhədinin küncünədək, bu küncdən də qarlı Alagöz dağının başınadək, buradan da Şurakel sərhədi, dağlar silsiləsi ilə, Mastaras və Artkin arasıyla Arpaçayadək. Bununla belə, Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə həmin xanlığın Zinzeley və Ərdəbil tərəfdən olan hüdudları daha artıq dürüstlük üçün hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş komissarlar tərəfindən bu müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onda status kvo ad prezenten əsasında Talış xanlığının sərhəd xətti ilə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu torpaqların sahibi qalsın".

Beləliklə, 1813-1828-ci illərə qədər Azərbaycanın ərazisi 410 min kvadratkilometr olub, o cümlədən İrandakı Güney Azərbaycanın sahəsi 280 min kvadratkilometr, Rusiyadakı Şimali Azərbaycanın sahəsi 130 min kvadratkilometr idi.

1918-ci ildə Rusiyanın təzyiqilə ermənilərə verilən İrəvan xanlığı - 9 min kvadratkilometr, Rusiya əsarəti altındakı Dərbənd xanlığı - 7 min kvadratkilometr, 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının ərazisi - 114 min kvadratkilometr, 1920-ci ildə ADR-i işğal edən Sovet İmperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri: Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və Borçalının birlikdə sahəsi - 27,4 min kvadratkilometr, 1920-1991-ci illərdə Azərbaycan SSR-in ərazisi - 86,6 min kvadratkilometr, Ermənistanın təcavüzü nəticəsində 1988-1994-cü illərdə işğal olunmuş ərazilərimiz - 13.210 kvadratkilometr, - Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə) - 4400 kvadratkilometr, Laçın - 1835 kvadratkilometr, Kəlbəcər - 1936 kvadratkilometr, Ağdam - 1094 kvadratkilometr, Cəbrayıl - 1054 kvadratkilometr, Füzuli - 1386 kvadratkilometr, Qubadlı - 802 kvadratkilometr, Zəngilan - 707 kvadratkilometr. Bir sözlə, Gülüstan sülhündən sonrakı illərdə 80 faiz ərazimizi itirmişik.

Azərbaycanı bu faciəyə gətirib çıxaran ən başlıca səbəblərdən biri o dövrdə vahid dövlətin olmaması idi. Xanlıqlar arasında gedən daimi çəkişmələr, müharibələr onların xarici qüvvələr qarşısında müqavimətini olduqca zəiflədirdi.

Müqavilədən əvvəl Azərbaycan xanları - Quba xanı Fətəli xan, Şəki xanı Çələbi xan, urmiyalı Fətəli xan Əfşar, Qarabağ xanı Pənahəli xan və başqaları ayrı-ayrılıqda Azərbaycanı birləşdirmək üçün cəhdlər etsələr də bir nəticə hasil olmadı...

Nəhayət, 1813-cü ildə Gülüstan müqaviləsindən sonra Rusiya Azərbaycanda xeyli möhkəmləndi və "əbədi" olaraq imzalanmış "Əhdnamələr"ə məhəl qoymayaraq xanlıqları bir-bir ləğv etməyə başladı. 1819-cu ildə Şəki xanlığı, 1820-ci ildə Şirvan xanlığı ləğv edildi. 1822-ci ildə Qarabağ xanlığı da ləğv edildi və onun yerində komendant üsuli - idarəsi təsis edildi.

Qarabağ xanlığı ləğv edildikdən bir il sonra - 1823-cü ildə "Qarabağ əyalətinin təsviri" hazırlandı. Qarabağda əhalinin sayı, etnik tərkibi haqqında az-çox etibarlı məlumatlara məhz burada rast gəlmək mümkündür. Professor S.Əliyarlının bu mənbə ilə bağlı araşdırmalarına görə, 1823-cü ildə rus idarəçiliyinin Qarabağda qeydə aldığı 18563 ailədən 1559 ailə, yəni 8,4 faiz beş alban məlikliyinin payına düşürdü. Erməni alimləri isə bu mənbəyə istinadən 1823-cü ildə Qarabağda 20 mindən artıq ailədən 5107-nin erməni olduğunu yazırlar. Hətta bu variantda da - ermənilərin İran və Türkiyədən kütləvi şəkildə Qarabağa köçürülməsini nəzərə almasaq belə, onların sayca Azərbaycan türklərindən 4-5 dəfə az olduğu görünür. "Qarabağ əyalətinin təsviri..." ermənilərə sərf etmədiyi üçün sonrakı dövrlərdə, demək olar ki, onu Rusiyanın bütün kitabxanalarından müxtəlif vasitələrlə çıxarıb məhv etdilər.

Müqavilədə yazılmışdı: "Biz, yuxarıda adları çəkilmiş səlahiyyətli Müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətnamələrimizi bir-birimizə təqdim etdikdən sonra, hər birimizə öz tərəfindən bizim BÖYÜK HÖKMDARLARIMIZ adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və Ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik".

Ancaq orada yazılanların "əbədiyyət"ə qədər uzanacağına nə onda, nə də sonrakı illərdə o taylı-bu taylı Azərbaycanda heç kim inanmadı. Elə onu vaxtilə yazıb möhür vuranlar da...

**“Əsgər”**

*MƏMMƏD ARAZ*

### Ayağa dur, Azərbaycan!

*Nə yatmısan, qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*
*Səndən qeyri,*
*biz hər şeyi bölə billik.*
*Səndən qeyri,*
*biz hamımız ölə billik.*
*Bu, Şəhriyar harayıdır,*
*Bu, Bəxtiyar harayıdır.*
*Ayağa dur, Azərbaycan!*
*Bunu bizə zaman deyir,*
*Məzarından baş qaldıran baban deyir:*
*- Nər oğlu nər, səninləyəm!*
*Səninləyəm silah tutan,*
*külüng tutan, yaba tutan,*
*Kösöy tutan nişanlı ər, səninləyəm!*
*Səninləyəm, qız atası*
*Hanı nərən, hanı səsin?*
*Hanı andın?*
*Yoxsa sən də yatmışlara, batmışlara,*
*Qeyrətini satmışlara xırdalandın?*
*Gözünü sil, vətən oğlu*
*Ayağa qalx!*
*Üfüqünə bir yaxşı bax,*
*Sərhədinə bir yaxşı bax,*
*Sərhədinin kəməndinə bir yaxşı bax!*
*Dur içindən qorxunu boğ,*
*Ölümünlə qalımını ayırd elə.*
*Dur içindən dovşanı qov,*
*Dur özünü Boz Qurd elə!*
*Varım – yoxum, səninləyəm*
*Azım – çoxum, səninləyəm*
*Şirin yuxum, səninləyəm.*
*Yıxın məni söz atından,*
*Atın məni tank altına,*
*Əzin məni xıncım-xıncım*
*Kəsmir əgər söz qılıncım.*
*Didin məni didim – didim,*
*Atın məni tank altına.*
*Qundaqdakı bir körpəni xilas edim,*
*Səninləyəm,*
*Sözü qəmli, özü dəmli*
*rəhbər adam!*
*1918 - də vuruşurdu*
*danışmırdı rəncbər atan,*
*rəncbər atam!*
*Oyat bizi ey yaradan, səninləyəm!*
*Ya birmərrə yatırt bizi,*
*Ya birmərrə oyat bizi.*
*Ya yenidən yarat bizi!*
*Ey yaradan, səninləyəm!*
*Səninləyəm, yatmış vulkan.*
*Səninləyəm!*
*Ayağa dur, Azərbaycan*
*Səninləyəm!*